

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (23.964)

27 aprel 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu qeyd edərək səfər zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyətinin və ilk növbədə, nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirə ediləcəyinə əminliyini ifadə edib. Prezident İlham Əliyev bununla əlaqədar dəmir yolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsinin tikildiyini və gələn il tikintinin tamamlanacağını bildirib. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər qrafikə tam uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb.

***

Prezident İlham Əliyev həmin gün Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul edib.

***

Prezident İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

## Muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində uğurlar davamlıdır

*1990-cı illərin hadisələri nəticəsində Naxçıvana gələn bütün kommunikasiyalar kəsilmiş, Naxçıvan elektriksiz qalmışdı. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işlədiyi dövrdə enerji təhlükəsizliyi məsələsi xüsusilə diqqətdə saxlanılmışdır.*

Bu gün ulu öndərin siyasətinin uğurla davam etdirildiyi muxtar respublikamızda həyata keçirilən tədbirlər hesabına enerji təhlükəsizliyi məsələsi tam şəkildə öz həllini tapıb. ***"Hər bir ölkənin inkişafının əsas göstəricisi enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün muxtar respublikanın inkişafının əsas hərəkətverici qüvvəsi elektrik enerjisinə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsidir. Enerji harada varsa, orada inkişaf var, həyat var"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bu sahəyə xüsusi diqqət və qayğısı nəticəsində yeni su və günəş elektrik stansiyaları tikilib istifadəyə verilmiş, elektrik enerjisinin ixrac imkanları yaranmışdır.

Bu gün də müasir enerji infrastrukturunun yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Ötən ilin statistik göstəricilərinə nəzər salsaq, görərik ki, 2021-ci ildə muxtar respublikada 444 milyon 804 min 6 kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bunun da 264 milyon 438 min 160 kilovat-saatı və ya 59,5 faizi istilik elektrik stansiyalarında, 129 milyon 570 min 936 kilovat-saatı və ya 29,1 faizi su



elektrik stansiyalarında, 50 milyon 794 min 910 kilovat-saatı və ya 11,4 faizi isə günəş elektrik stansiyalarında istehsal edilib.

Görülən işlərin davamı olaraq 2022-ci ilin ilk rübündə muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində Ordubad rayonunda Ordubad və Tivi Su Elektrik stansiyalarının və Şərur rayonunda Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir. Enerji sistemini daha da müasirləşdirmək məqsədilə Culfa rayonunda 132/110/35/10 kilovoltluq elektrik yarımstansiyasının tikintisi davam etdirilib, Ordubad



rayonunun Xanağa kəndində 35/10 kilovoltluq yarımstansiyanın tikintisinə başlanılıb. Muxtar respublikada 7,6 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilib, 3 transformator yarımstansiyası quraşdırılıb.

Prezident cənab İlham Əliyev muxtar respublikada enerji sahəsinin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***"Enerji hər bir inkişafın təməlində dayanan ən vacib amildir və bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan bu məsələni tam şəkildə həll edibdir. Bu, böyük hadisədir, tarixi nailiyyətdir".***

Bu sahədə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən ardıcıl tədbirlər deməyə imkan verir ki, muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində uğurları davamlıdır.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Quruculuq tədbirləri geniş vüsət alıb



***Muxtar respublikamızda həyata keçirilən kompleks tikinti-quruculuq işlərindən bu gün ölkəmizin ən prestijli təhsil ocaqlarından olan Naxçıvan Dövlət Universitetinə də pay düşüb.***

Məlumat üçün bildirək ki, Azərbaycan təhsil sahəsində bir ilk olan, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində tikintisinə başlanılan Texnologiyalar Parkının və yeni rektorluq inzibati binasının inşası sürətlə davam edir.

Universitetin rektorluq inzibati binasının tikintisinə ötən ildən başlanılıb. Üç mərtəbədən ibarət olan binada ali təhsil ocağının bütün struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulub. Binada kabinet və iş otaqları ilə yanaşı, enerji diplomatiyası mərkəzi, senat otağı, universitet muzeyi və yeməkxananın yerləşməsi də nəzərdə tutulmuşdur.

Ali təhsil ocağının Texnologiyalar Parkının əsas binasında da tikinti prosesləri sürətlə davam edir. Qeyd edək ki, yeni qurulacaq Texnoparkda biopark, texnopark binaları, nəbatat bağı, habelə energetika, gülkarlıq, tingçilik, hovuz, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, üzümçülük, meliorasiya, arıçılıq, sərgi sahələri və tədris otaqları fəaliyyət göstərəcəkdir. Texnoparkın binasının isə zirzəmi ilə birlikdə, ümumilikdə, 5 mərtəbədən ibarət olması nəzərdə tutulmuşdur.



Binanın zirzəmisində Texnoservis Mərkəzi, Nanoaraşdırmalar Mərkəzi, proqramlaşdırma və avtomatlaşdırma otağı, Biotexnologiyalar Mərkəzi, Prototip Mərkəzi, kafe və təsərrüfat otağının yerləşdirilməsi nəzərdə tutulmuşdur.

Binanın birinci mərtəbəsində Şərur sənaye məhəlləsi, Naxçıvan Məhsulları, "Naxtel" 4G operatorunun, Microsoft, CISCO, KOICA, Bakunity şirkətlərinin ofisləri, digər gələcək rezident şirkətlər üçün ofislər fəaliyyət göstərəcək.

İkinci mərtəbədə İnnovasiya, Layihələrin əlaqələndirilməsi mərkəzləri, İnformasiya texnologiyaları xidmətləri mərkəzi, Süni intellekt elmi-tədqiqat mərkəzi, incəsənət, dizayn və memarlıq layihələri xidməti, elektronika otağı, Texnopark direktoru və direktor müavini üçün iş otaqları nəzərdə tutulmuşdur.

Üçüncü mərtəbədə Biznes inkubatoru, İdeya bankı, Coworking, Startap mərkəzlərinin, dördüncü mərtəbədə isə 3 müzakirə otağı və 240 nəfərlik akt zalı yerləşəcək. Biopark binasında isə Naxçıvan faunasına aid nümunələrin yerləşdiyi muzey, APİAİR müalicə sahəsi, laboratoriya (arı südü, arı zəhəri istehsalı), 1 inzibati otaq, arı mayalandırma, barama, dovşan, ağ siçan və zəli yetişdirmə sahələri fəaliyyət göstərəcək.

✍ Məcid RƏŞADƏTOĞLU

Bu gün muxtar respublikamızda idmanın inkişafı, ümumilikdə, Naxçıvanın sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biri hesab olunur. Xüsusilə müasir idman infrastrukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər bu gün diyarımızda aparılan tikinti-quruculuq işlərinin əsasını təşkil edir. Son illər muxtar respublikanın bütün bölgələrində uşaq, yeniyetmə və gənclərin idmanla



məşğul olmaları, onların yarışlarda, turnirlərdə iştirakları təmin olunur, şəhər, rayon və kəndlərdə idman obyektləri yenilənir, müasirtipli yeni idman zalları tikilərək istifadəyə verilir.

Son günlər siması yenilənən idman obyektlərindən biri də Naxçıvan Muxtar Respublika Stadionudur. Naxçıvan Futbol Federasiyasında struktur dəyişikliyindən sonra futbol sahəsində bir qədər canlanma müşahidə olunur. Belə ki, bu sahənin inkişafı üçün federasiya aid olduğu stadionların təmirinə ciddi fikir verir, onları müasir avadanlıqlarla təmin edir. Mərkəzi stadionda bir aydan çoxdur, təmir işlərinə start verilib. Məlumat üçün deyək ki, stadionun ot örtüyünün müasir tələblərə cavab verməsi üçün federasiya bu sahənin mütəxəssisini Naxçıvana dəvət edib. Hazırda ot örtüyünün yenilənməsi məqsədilə qidalandırıcı gübrələr verilir, müasir ot dərmanlarından istifadə edilir və alaq otları təmizlənir. Arenanın düzlüyünün alınması da diqqətdə saxlanılır və stadionda qumlama işləri aparılır.

Yeni futbol mövsümünə hazırlıqlarla əlaqədar olaraq arenanın VİP otaqları və inzibati binada yerləşən paltardəyişmə otaqları yenidən təmir olunur. Uzun müddətdir, yararsız halda olan su nasosları təmir edilib, onlar qoruyucu vasitələrlə təmin olunub, suqızdırıcı baryer yenisi ilə əvəzlənib.

✍ Ceyhun MƏMMƏDOV

*Ailə təsərrüfatları modeli bu gün muxtar respublikada əhali məşğulluğunun ən geniş yayılmış formalarından biridir. Son illərdə bu cür təsərrüfatların sayının artması onlar arasında koordinasiyanı da zəruri edir. 2019-cu ildə yaradılmış Ailə Təsərrüfatları İctimai Birliyi də məhz buna əsaslanır. Bəs bu gün adıçəkilən birlik ailə təsərrüfatları arasında hansı funksiyaları həyata keçirir? Müsahibimiz Ailə Təsərrüfatları İctimai Birliyinin sədri Mübariz Şirəliyevdir:*

*Ailə təsərrüfatlarımız*

# Ailə Təsərrüfatları İctimai Birliyi təsərrüfat subyektləri arasında əlaqələndirici rol oynayır

## Mübariz Şirəliyev: “Ailə təsərrüfatlarının sayının artması bu sahəyə göstərilən dövlət qayğısı ilə bağlıdır”

***– Mübariz müəllim, xoş gördük sizi. Artıq sualı ünvanlamışıq, buyurun, cavabı sizdən eşidək.***

– Mən də qəzetiniz vasitəsilə bütün oxucuları salamlayıram. Suala cavab verməzdən əvvəl qeyd etmək istərdim ki, muxtar respublikamızda ailə təsərrüfatlarının ildən-ilə sayının artması, ilk növbədə, dövlətin bu sahəyə olan böyük dəstəyi ilə bağlıdır. Bildiyiniz kimi, 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər planlarının təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün daha geniş imkanlar açıb. Qarşıya qoyulan vəzifələrin icrasına uyğun olaraq Ailə Təsərrüfatları İctimai Birliyi yaradılıb. Və doğru qeyd etdiniz ki, Ailə Təsərrüfatları İctimai Birliyi ailə təsərrüfatları arasında əlaqələndirici rol oynayır. İstər təsərrüfatın yaradılması və yaxud məhsulun istehsal və satış mərhələsində ortaya çıxan məsələlərin həllində təsərrüfat sahiblərinə müəyyən köməkliklər etməyə çalışırıq. Köməyimiz də, əsasən, təsərrüfatçılar arasında müxtəlifsəpkili maarifləndirici görüşlər təşkil etmək, onların qayğıları ilə maraqlanmaq, dövlət qurumları ilə ailə təsərrüfatları arasında əlaqələri təmin etməkdir.

***– Hazırda muxtar respublikada nə qədər ailə təsərrüfatı fəaliyyət göstərir?***

– Qeyd edim ki, muxtar respublikamızda ailə təsərrüfatlarının sayı hər keçən gün daha da artır. Hazırda istehsal və emal fəaliyyəti ilə məşğul olan ailə təsərrüfatlarının sayı 1238-dir.

***– İstənilən biznes subyektinin ilkin mərhələdə az və ya çoxluğundan asılı olmayaraq, maliyyə vəsaitinə ehtiyacı olur. Elə buradan belə bir sual yaranır ki, ailə təsərrüfatları dövlətin maliyyə dəstəyindən necə yararlanırlar? Ümumiyyətlə, ailə təsərrüfatlarının maliyyə qurumlarına çıxışı necə təmin olunub?***

– Əvvəldə də qeyd etdiyimiz kimi, dövlət bu sahənin inkişafında maraqlıdır. Buna görə də bu gün muxtar respublikada fəaliyyət göstərən istənilən ailə təsərrüfatının maliyyə mənbələrinə çıxışı çox yüksək səviyyədə təmin olunur. Əgər təsərrüfatçı öz təsərrüfatını yaratmaq və yaxud mövcud fəaliyyətini genişləndirmək istəyirsə, bu sahədə heç bir problem yoxdur. Bu, təsərrüfatçının birbaşa özü və ya bizim vasitəmizlə də mümkündür. Konkret olaraq rəqəmlərə gəldikdə, 2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 76 ailə təsərrüfatına 1 milyon 221400 manat dövlət maliyyə dəstəyi göstərilib.

***– Mübariz müəllim, muxtar respublikada istehsal olunan məhsulların ixracı prioritet məsələlərdən biridir. Ümumiyyətlə, ailə təsərrüfatlarının ixracyönümlü məhsul istehsalına marağı necədir? Bilirsiniz ki, söhbət kənd təsərrüfatı məhsullarının ixracından gedirsə, burada məhsulların emalı da mühüm əhəmiyyət daşıyır.***

– Bəli, kənd təsərrüfatı məhsullarının həm birbaşa, həm də emal olunaraq satışı mümkündür. Sizin də bildiyiniz kimi, kənd təsərrüfatı məhsullarının həm emalı, həm də ixracının stimullaşdırılması üçün yeni Dövlət proqramı da qəbul olunub. Burada əsas məsələlərdən biri məhsulun uzunmüddətli satışına nail olmaqdır ki, bu da emalsız mümkün deyil. Sevindirici haldır ki, bu gün Naxçıvanda meyvə-tərəvəzin qurudulması, onlardan bir sıra qablaşdırılmış məhsulların (mürəbbə, kompot, cem və sair) hazırlanmasında çoxsaylı ailə təsərrüfatları iştirak edir. Və yaxud son illərdə üzümçülüyün inkişafı müxtəlif şərab məhsullarının istehsalına imkan verib. Hazırda istehsal olunan belə məhsulların Naxçıvandan kənarda, xüsusilə paytaxt Bakıda satışı təşkil olunur. Bu o deməkdir ki, məhsullarımız daxili bazarı ödəyir, bizim isə qarşımızda əsas məqsəd məhsullarımızı ölkə xaricinə çıxarmaqdır. Düşünürəm ki, bunun bir az da zamana ehtiyacı var. Ancaq sizə bir misal da çəkə bilərəm bununla bağlı. Məsələn, ötən il biz qarğıdalı sahələrindən yaxşı məhsul əldə etmişdik. Şəxsən mən özüm də xeyli sahədə qarğıdalı əkmişdim. İş elə gətirdi ki, muxtar respublikada bu məhsul üzrə bolluq yarandı və biz əlaqədar dövlət orqanları ilə əlaqə saxlayaraq əlimizdə olan məhsulu ixrac etməyə qərar verdik. Beləliklə, bütün işlər tamamlandıqdan sonra 555 tona yaxın qarğıdalını Türkiyə Respublikasına ixrac etdik.







***– Yeri gəlmişkən siz bir məsələni də yadıma saldınız. Daxili bazarın ehtiyacını ödəmək əsasdır, digər tərəfdən xarici bazarlara çıxışı təmin etmək də göründüyü kimi asan deyil. Çünki hər bazarın öz tələbi var. Məsələn, bu gün biz ölkə olaraq Azərbaycan məhsullarını Rusiya bazarlarına rahat çıxara bilirik, amma Avropa bazarları üçün tamam başqa tələblər mövcuddur. Doğrudur, biz məhsullarımızın keyfiyyətini, insan sağlamlığına əhəmiyyətini gözəl bilirik, hətta bu keyfiyyətlə istənilən ölkənin məhsulları ilə yarışa da girə bilərik. Ancaq qeyd etdiyim kimi, bunu yalnız biz bilirik, digərlərinə çatdırmaq üçün müxtəlif proseslərdən keçməliyik.***

– Tamamilə doğrudur, buna görə də Ali Məclisin Sədri daim öz çıxışlarında rəqabətqabiliyyətli məhsul istehsalının vacibliyini vurğulayır. Heç şübhəsiz ki, zamanla ailə təsərrüfatlarımızda istehsal peşəkarlığı ilə yanaşı, onları dünya bazarında mövqeləndirə biləcək ticarət səriştəliliyi də formalaşacaq.

***– Ailə təsərrüfatları tərəfindən sizə hansısa təşəbbüslərlə müraciət edənlər olurmu?***

– Bizə müraciətlər, təbii ki, olur. Bu, təşəbbüs formasında da olur, eyni zamanda məsləhət almaq istəyənlər də az deyil. İxtisasca aqronom olduğuma görə təsərrüfat sahiblərinə bu istiqamətdə daha yaxından kömək etməyə çalışıram. Ancaq işlərimiz bununla bitmir, ictimai birlik olaraq daim muxtar respublika rəhbəri tərəfindən qarşımıza qoyulan tapşırıqların təsərrüfat sahiblərinə çatdırılması, onların bu və ya digər istiqamətlərdə maarifləndirilməsi də görülən işlər sırasındadır. Buna nə qədər nail oluruq? – bu, artıq zamanın işidir.

***– Sizə sonda belə bir sual vermək istərdim: ailə təsərrüfatı məhsullarını turistlərə necə sata bilərik?***

– Ailə təsərrüfatı məhsulları bu gün muxtar respublikanın bütün ticarət obyektlərində satılır. Düşünürəm ki, Naxçıvana gələn turistlər də bu məhsullardan alıb istifadə etmək istəyər...

***– Bu, təbiidir, ancaq mənim demək istədiyim odur ki, necə etməliyik ki, turistlər bu məhsullardan alıb öz ölkələrinə aparsınlar.***

– Hesab edirəm ki, bunun ticari baxımdan yaxşı təbliğatını aparmalıyıq.

***– Yəni marketinqini düzgün qurmalıyıq?***

– Bəli, bir az bundan əvvəl də buna bənzər fikir səsləndi: məhsulumuz keyfiyyətli ola bilər, əslində, keyfiyyətlidir də, ancaq bunu qarşı tərəfə çatdırmağı bacarmaq lazımdır.

***– Suallarımızı cavablandırdığınız üçün təşəkkür edirəm.***

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# “Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında informasiya təhlükəsizliyi” mövzusunda seminar təşkil edilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda işləyən aid əməkdaşlar üçün “Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında informasiya təhlükəsizliyi” mövzusunda seminar keçirilib.*

Seminarda Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli bildirib ki, dövlət qurumlarında müasir texnologiyaların tətbiqi və internet resurslarından geniş istifadə informasiya təhlükəsizliyinin təmin olunması və informasiya-kommunikasiya texnologiyalarından düzgün və təhlükəsiz istifadəni aktual edir. Qeyd olunub ki, keçirilən seminar və təlimlər bu sahədə əhəmiyyətli uğurların qazanılmasına şərait yaradacaq.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından bəhs edib. Vurğulanıb ki, nazirlik tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında informasiya təhlükəsizliyinin təminatı üzrə Nümunəvi Təlimat”da dövlət qurumlarında informasiya təhlükəsizliyinin təmin edilməsi qaydaları, habelə struktur bölmələr və əməkdaşlar üçün informasiya təhlükəsizliyi sahəsində məcburi tələblər müəyyənləşdirilib.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı İnci Şirzadova tərəfindən isə slayd vasitəsilə Nümunəvi Təlimat barəsində ətraflı məlumat verilib.

Vurğulanıb ki, təhkim olunmuş rabitə vasitələrindən, informasiya daşıyıcılarından, kompüterdən, daxili şəbəkə və internetdən xidməti zərurətdən kənar məqsədlər üçün istifadə etmək, şəxsi məlumatları təhkim olunmuş kompüterə köçürmək, şəxsi istifadədə olan rabitə xətlərini icazəsiz başqa qurğulara birləşdirmək, habelə qanunazidd və zərərli proqram təminatlarından, razılaşdırılmamış VPN xidmətlərindən istifadə yolverilməzdir.

Qeyd edilib ki, elektron poçt ünvanlarından istifadə edən zaman diqqətli olmalı, xidməti istifadə üçün dövlət qurumlarında tətbiqinə icazə verilmiş və təhlükəsizliyi müəyyən edilmiş elektron poçt ünvanından istifadə olunmalı, bir neçə əməkdaş eyni kompüterdən istifadə etdikdə hər bir istifadəçi üçün ayrı hesab və fərdi şifrələr təyin edilməli, bütün texniki avadanlıqlar inventarizasiya olunmalı, bütün vacib informasiya sistemlərinin dayanıqlı alternativi olmalıdır.

Bildirilib ki, Nümunəvi Təlimatda nəzərdə tutulmuş informasiya təhlükəsizliyinin təminatı barədə tələblərin pozulmasına yol vermiş hər bir əməkdaş qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Seminarın sonunda dövlət qurumlarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elan olunan “Mütaliə aylığı” çərçivəsində “Oxu günü” adlı tədbir keçirilib.*

# “Mütaliə aylığı” çərçivəsində “Oxu günü” adlı tədbir keçirilib

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, mütaliənin şagirdlərin formalaşmasında, milli-mənəvi və ümumbəşəri dəyərlərin təşəkkülündə müstəsna rolunu nəzərə alaraq, şagirdlərin elmi-kütləvi və bədii ədəbiyyat nümunələrinin oxusuna təşviq edilməsi, onlarda mütaliə vərdişləri və mədəniyyətinin yaradılması məqsədilə aprel ayı ümumtəhsil məktəblərində “Mütaliə aylığı” elan edilib. Bu ay çərçivəsində bir sıra tədbirlər keçirilib. “Oxu günü”nün də məqsədi şagirdlərdə mütaliəyə diqqətin artırılması, onlar arasında oxu vərdişlərinin inkişaf etdirilməsidir.

Tədbirdə şagirdlər mütaliə etdikləri, “Oxunması zəruri olan kitabların Siyahısı”nda olan əsərlər barədə məlumat veriblər.

Tədbirdə Azərbaycan şairlərinin şeirləri də bədii qiraət olunub, həmçinin şagirdlər kiçik parçalar da səhnələşdiriblər. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin rəsm və əl işlərindən ibarət sərgi də təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# “İslam dini və Azərbaycan” mövzusunda elmi konfrans

“Naxçıvan” Universitetində “İslam dini və Azərbaycan” mövzusunda elmi konfrans keçirilib.

Konfransda “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva muxtar respublikada dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə 29 mart 2022-ci il tarixdə keçirilən müşavirədən bəhs edib. Bildirilib ki, bu müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ali təhsil müəssisələrinə də mühüm tövsiyə və tapşırıqlar verilib.

Universitetdə Dinşünaslıq ixtisasının tədris olunmasından danışan rektor qeyd edib ki, 2015-2016-cı tədris ilindən bu ixtisasa aid olan bütün fənlər yeni yaradılmış İlahiyyat kafedrasında cəmləşdirilib. Bu kafedrada müxtəlif vaxtlarda həm dövlət qurumları ilə birlikdə “Müasir dövrdə gənclərin tərbiyəsində islamın rolu”, “İslam dinində vətənpərvərlik və şəhidlik”, “İslam dinində mənəvi tərbiyə” kimi bir sıra mövzularda elmi konfranslar keçirilib.



Diqqətə çatdırılıb ki, ali və orta ixtisas təhsili müəssisələrində dini-mənəvi dəyərlərimizin, İslam tarixinin, əxlaqının əsas prinsipləri barədə mühazirələrin təşkil olunması, gənclərdə dini bilik və təsəvvürlərin artırılması vacib məsələlərdən biridir. Hami müəssisə olan Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi ilə birgə Dinşünaslıq ixtisası üçün kadr hazırlığının təkmilləşdirilməsi, din sahəsində sağlam ictimai şüuru formalaşdıran mütəxəssislərin hazırlanması ali təhsil müəssisəsinin qarşısındakı ən ümdə məsələdir.

Konfransda İlahiyyat kafedrasının müəllimləri Sahib Məmmədov, Ayaz Axundov, Nərgiz Məmmədli və Dinşünaslıq ixtisasının IV kurs tələbəsi Zeynəb Səfərovanın məruzələri dinlənilib. Yekunda tələbələri maraqlandıran suallara aydınlıq gətirilib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”.***

*Təhsil millətin gələcəyidir*

# Müasir infrastrukturlu məktəbdə yeni uğurlar qazanılmasına səy göstərilir



Bu gün





Bu gün qürurla demək olar ki, ümummilli liderimiz Heydər Əliyevin bu qiymətli tövsiyəsi ölkəmizdə tamamilə reallığa çevrilib. Belə ki, dinamik xarakter alan sosial-iqtisadi inkişafda təhsil sisteminin tamamilə yeniləşdirilməsini hər addımda müşahidə etmək mümkündür. Bu da ulu öndərin müəyyənləşdirdiyi təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Elə bu qayğının nəticəsidir ki, muxtar respublikamızda da təhsil sahəsi özünün yeni inkişaf mərhələsindədir. Dünən qazanılan uğurlarla bu gün kifayətlənməyən pedaqoji kollektivlər yeni nailiyyətlər əldə etmək əzmi ilə çalışırlar. Məqsəd isə onlara göstərilən etimadı doğrultmaq, dövlətçiliyə, müstəqilliyimizə sadiq vətənpərvər vətəndaşlar yetişdirməkdir. Uzağa getmədən ötən il bu sahəyə göstərilən qayğını görmək olar. Belə ki, Babək rayonunun Göynük və Araz, Şərur rayonunun Şahriyar, Dərvişlər, Ordubad rayonunun Vələver, Nüsnüs, Aşağı Əndəmic, Dırnıs kəndlərində məktəb binalarının və Ordubad şəhərində 612 şagird yerlik 1 nömrəli tam orta məktəb binasının yenidən qurulması başa çatdırılıb, həmin təhsil ocaqlarında hərtərəfli şərait yaradılıb.

Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin, Babək rayonunun Sirab, Ordubad rayonunun Pəzməri kəndlərində məktəb binalarının tikintisi davam etdirilib. Mütərəqqi təhsil metodu kimi əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 7 iyun tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılıb, Naxçıvan şəhərində mərkəz üçün binanın tikintisinə başlanılıb.

Yeni ilin əvvəlində isə Şərur rayonunun Çərçiboğan kəndində ilin ilk məktəb binası istifadəyə verilib. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 654 şagird yerlik məktəbdə 33 sinif, 3 elektron lövhəli və 2 şahmat, 2 kompüter, psixoloq və müəllimlər otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, 3 qarderob və idman zalı yerləşir. Kitabxana fondunda oxunması zəruri olan kitablar da daxil olmaqla, 13 min 396 kitab vardır. STEAM kabinəsi zəruri öyrədici STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilib.

Şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi üçün hərbi kabinədə lazımi şərait yaradılıb, kabinə əyani vəsaitlərlə təmin olunub. Həmçinin binanın həyətində bufet və qazanxana tikilib, açıq idman qurğuları quraşdırılıb, yaşıllıqlar salınıb, stadion təmir edilib.

Məktəbin direktoru Elnarə Əliyeva deyir ki, Azərbaycan təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyması ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində mümkün olub. Təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirən cənab İlham Əliyevin belə diqqət və qayğısının bəhrələrini muxtar respublikamızın timsalında da görmək olar. Belə ki, son illər qədim diyarımızda 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb.

Müasir maddi-texniki bazanın yüksək səviyyədə formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli və mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər. Bütün bunlar təhsildə qazanılan uğurların təməlində dayanan amillərdir. Bizim məktəbin kollektivi də bu imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

Məktəbin direktoru təhsil ocağının uğurlarından da söhbət açır: – Çəkilən zəhmətin bəhrəsidir ki, ötən il məktəbimizin məzunlarından 15-i ali, 3-ü orta ixtisas məktəblərinə qəbul olub. Onlardan 4-ü 500-dən yuxarı bal toplayıb. Təbii ki, bu uğurların qazanılmasında müəllim əməyinin böyük rolu var. Bu gün onu da qürurla demək olar ki, respublikamızda şərəfli peşə sahiblərinin zəhməti daim yüksək dəyərləndirilir. Çərçiboğan məktəbinin müəllimlərindən Nahidə İbrahimovanın “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi”, Səadət Süleymanovanın isə “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülməsi, ümumilikdə, pedaqoji kollektivə göstərilən qayğı kimi dəyərləndirilib.

Məktəbin məktəbdənkənar və sinifdənxaric işlər üzrə təşkilatçısı İsaq Kərimov söhbətimizə qoşularaq deyir ki, pedaqoji iş kollektiv işidir. Burada birgə fəaliyyət başlıca amildir və kollektivimiz bunu dərindən dərk edir, həm tədris məşğələləri canlı qurulur, həm də məktəbdənkənar və sinifdənxaric tədbirlərə böyük önəm verilir. Gələcəyimiz etibar ediləcək bugünkü məktəblilərin Vətənə, dövlətə və dövlətçiliyə, mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunması diqqət mərkəzində saxlanılır. Keçirilən tədbirlərin formal xarakter daşımamasına çalışılır.



Dünən

İsaq Kərimov cari dərs ilində də bu məsələlərin diqqət mərkəzində saxlanıldığını, həyata keçirilən tədbirlərin öz bəhrələrini verdiyini deyir: – Əvvəlki illərdə əldə olunan nailiyyətlərin sayının artırılması bu il də hədəf kimi götürülüb. Müxtəlif məzmunlu müsabiqə və yarışlarda şagirdlər yüksək göstəricilərlə çəkilən zəhmətin, yaradılan şəraitin hədər getməməsinə çalışırlar. Məktəbimizdə oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb ki, həmin kitabların bir neçəsinin müzakirəsi də təşkil olunub, çünki kitab və mütaliə insan xarakterinin düzgün formalaşmasında mühüm əhəmiyyətə malikdir. Onu da qeyd etməliyəm ki, şəhidlərimizin əziz xatirəsi də unudulmur. Onların keçdiyi qəhrəmanlıq yolunu şagirdlərimizə aşılamaq məqsədi daşıyan tədbirlərə ciddi önəm verilir. Bu da şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə öz təsirini göstərir. Məktəbimiz “Şahin” və “Cəsurlar” hərbi-idman oyunlarında fəal təmsil olunur. Qürurluyuq ki, şagirdlərimiz bu yarışlarda da xeyli uğurlara imza atıblar.

Təhsil ocağının sınaq imtahanlarında fərqlənən şagirdləri ilə də həmsöhbət oluruq. 11-ci sinif şagirdi Səkinə Əliyeva deyir: – Bütün şagirdlər yüksək bal toplamaq, ali məktəb tələbəsi adını qazanmaq arzusunda olur. Onların hamısı uğurlu nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq istəyir. Abituriyent bu sevinci, sadəcə, yaxşı çalışaraq yaşaya bilər. Mən də məktəbdə bizə elmlərin sirlərini öyrədən müəllimlərimin, valideynlərimin etimadını doğrultmağa çalışıram. İstifadəmizə verilən zəngin kitabxana, kompüter otaqları, idman zalı, ümumiyyətlə, hər şey bizi daha da yaxşı oxumağa və yaradılanları qoruyaraq bizdən sonrakı şagirdlərə ötürməyə sövq edir. Ali məktəblərə qəbula hazırlaşan bütün sinif yoldaşlarıma uğurlar arzulayıram. İnanıram ki, göstərilən etimadı doğruldacağıq.

*Məktəbin müəllimləri Ali Məclis Sədrinin* ***“Çərçiboğan kənd tam orta məktəbindəki şərait imkan verəcəkdir ki, qarşıda duran bu vəzifələr layiqincə yerinə yetirilsin, təhsilli, vətənpərvər gənclər yetişdirilsin. Məktəbin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə yaxşı kollektiv formalaşıb. Məktəbin lazımi şəraiti olmadığı vaxtlarda kollektiv işinə məsuliyyətlə yanaşaraq nailiyyətlər qazanıb”*** *dəyərli fikirlərini əldə rəhbər tutaraq uğurlarını daha da artırmaq üçün ciddi səylə çalışırlar. Məqsəd isə aydındır. Qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetirilsin. Bu vəzifələrin yerinə yetirilməsi isə gələcəyimizə etibarlı təminat yaratmaq deməkdir.*

**✍ Telli MƏMMƏDOVA**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə həyata keçirilən uğurlu islahatlar nəticəsində müasirləşən və gözəlləşən muxtar respublikanın turizm potensialı da gündən-günə genişlənir. Naxçıvan ilk insan məskənlərindən biridir. Bu diyar qədim sivilizasiyaların, oturaq həyat tərzinin, zəngin şəhər ənənələrinin mövcud olduğu bir məkandır. Naxçıvan, eyni zamanda dövlətçilik tariximizdə də mühüm rol oynamışdır. Bu ərazidə mövcud olmuş dövlətlər milli dövlətçilik ənənələrinin formalaşması ilə yanaşı, həm də bölgənin inkişafına, müdafiə qabiliyyətinin güclənməsinə, inzibati idarəçiliyin möhkəmlənməsinə də mühüm töhfələr vermişdir.***

*Tarixin izi ilə*

# Naxçıvan Muxtar Respublikasının turizm potensialının inkişafında qədim Gilan şəhərinin əhəmiyyəti

Naxçıvan Muxtar Respublikasının özünəməxsus coğrafi mövqeyi, qədim tarixə malik mədəniyyət abidələri burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Qədim dövrlərin yadigarı olan və dövlətimiz tərəfindən bərpa edilən ən məşhur tarix-memarlıq abidələrimiz, o cümlədən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Qarabağlar Türbə Kompleksi, Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələri, “Əlincəqala” tarixi abidəsi və muzeyi, Əshabi-kəhf kimi tarixi məkanlar buraya gələn turistlərin diqqətini, xüsusilə cəlb edir.

Muxtar respublikanın qədim tarixi abidələri ilə zəngin olan bölgələrindən biri də Ordubad rayonudur. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən ***“Azərbaycanın incisi”*** adlandırılan Ordubad təkcə təbii gözəllikləri, flora və faunası ilə tanınmır. Burada tarixi baxımdan diqqəti cəlb edən qədim yurd yerləri və tarixi abidələr zəngin maddi-mənəvi irsimizdən xəbər verir. Bu bölgənin böyük turizm potensialı vardır. Ordubad buzxanası, Qeysəriyyə, Came məscidi, Ambaras, Malik İbrahim və Dilbər məscidləri buraya üz tutan xarici turistlərin, xüsusilə diqqətini cəlb edir. Ordubad ərazisində mövcud olan tarixi yaşayış məskənlərindən biri də, orta əsr şəhər mədəniyyətinin parlaq nümunələrindən olan qədim Gilan şəhəridir. Vaxtilə şəhərin yerləşdiyi ərazi 100 hektardan çox olmuşdur. Gilan ərazisində ilk antik dövrdə (eramızdan əvvəl V-IV əsrlərdə) şəhər mədəniyyəti yaranmış, orta əsrlərdən isə bu şəhər Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevrilmişdir.

Şəhərdə aparılan arxeoloji tədqiqat zamanı tapılan maddi mədəniyyət nümunələri arasında XII-XIV əsrlərə aid gil qab və memarlıq fraqmentləri, üzərində kufi, nəsx xətləri ilə yazılara da rast gəlinib. Şəhərin əsas memarlıq abidələri onun şimalında və şimal-şərqindəki iki dağın üzərində yerləşmişdir. Burada Naxçıvan memarlıq məktəbinin X-XIII əsrlərə aid ən gözəl nümunələri toplanmışdır. 1980- ci ildə tədqiq edilmiş 1 saylı türbə tikinti materialları tikinti texnikası və memarlıq üslubuna görə Naxçıvan şəhərindəki Yusif Küseyir oğlunun (1162-ci il) və Möminə xatın (1187-ci il) türbələrinin oxşarıdır. Abidədən aşkar olunmuş numizmatik materiallar şəhərin iqtisadi, siyasi və mədəni həyatının öyrənilməsində mühüm rol oynamaqla yanaşı, dövrün müəyyən edilməsində də əsas vasitədir. Xaraba Gilan şəhər yerindən eramızdan əvvəl II əsrdən XV əsrə qədər uzun bir xronoloji dövrü əhatə edən sikkələr əldə edilmişdir. Bunların içərisində II Mitridatın (eramızdan əvvəl 123-cü illər) Arşaki gümüş drahması, imperator Honorinin (395-423-cü illər) qızıl solidi, IX-X əsrlərə aid ərəb xəlifələrinin qızıl sikkələri, XI-XII əsrlərə aid anonim Bizans sikkəsi və Eldəgizlərin çoxlu miqdarda (XII-XIII əsrlər) mis pulları, Şirvanşahların (XII əsr), I Məsudun (1180-1193 cü illər) mis sikkələri, hülakülərin mis və gümüş sikkələri vardır. Numizmatik materiallar içərisində üzərində “Kiran” yazılmış mis sikkə də vardır ki, bu da şəhərdə zərbxananın olduğunu sübut edir. Şəhərdə dulusçuluq, metalişləmə, daşişləmə, toxuculuq və digər sənət sahələri inkişaf etmişdir.



Xaraba Gilanda aşkar olunmuş XII-XIII əsrlərə aid karvansara kompleksi öz mürəkkəb planına və konstruktiv həllinə görə Azərbaycanın orta əsrlər şəhərtipli karvansaralarının ən yaxşı nümunələrindən biridir. Antik dövrdən şəhər kimi formalaşan Gilan XIV əsrin əvvəllərində süqut etdikdən sonra bu mədəniyyət ənənəvi inkişafını Aza (XIV-XV əsr) və Ordubad (XVI əsrdən sonra) şəhərlərində davam etdirmişdir.

*Tariximizin daş yaddaşına çevrilən, açıq səma altında muzey olan Xaraba Gilanda aşkar olunmuş zəngin arxeoloji materiallar, maraqlı elmi nəticələr Naxçıvanın orta əsr şəhər mədəniyyətinin bütün xüsusiyyətlərini, bu şəhərdə yaşamış insanların həyat tərzini, məişətini, təsərrüfat həyatını, qonşu tayfalarla qarşılıqlı iqtisadi-mədəni əlaqələrini kompleks şəkildə öyrənmək sahəsində mühüm elmi əhəmiyyət daşıyır və muxtar respublikanın turizm potensialının perspektiv inkişafında özünəməxsus yer tutur.*

**Saleh SƏFƏROV**
***“Sabahın tədqiqatçıları-2022” layihəsinin iştirakçısı, Naxçıvan Qarnizonu tam orta məktəbinin IX sinif şagirdi,***
***elmi rəhbər Toğrul XƏLİLOV***
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent***

***Naxçıvan nəinki Azərbaycan və Yaxın Şərqin, eləcə də dünyanın qədim tarixə və zəngin mədəniyyətə malik olan bölgələrindən biridir. Qədim yurd yerləri, Gəmiqaya rəsmləri, I və II Kültəpə kimi maddi mədəniyyət abidələri ilə yanaşı, nəsillərdən-nəsillərə keçərək günümüzə qədər gəlib çatan xalqın mənəvi xəzinəsi – bədii yaddaşı da bu baxımdan əvəzsiz mənbədir. Şifahi xalq ədəbiyyatı janrları tarix, etnoqrafiya, dilçilik, dialektologiya, toponimika, etimologiya kimi bir sıra elm sahələri ilə sıx əlaqəli olduğundan bu sahədə tədqiqatların aparılması mühüm əhəmiyyətə malikdir.***

*Yeni nəşrlər*

# Folklorşünaslıq elmini yeniliklərlə zənginləşdirəcək monoqrafiya

Filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun folklorda janrlararası əlaqələri və sintezi araşdırdığı "Folklorda janr daxilində janr (Naxçıvan örnəkləri əsasında)" monoqrafiyası Azərbaycan folklorşünaslığı, eləcə də ədəbiyyatşünaslığı elminə dəyərli töhfədir. Monoqrafiyanın elmi redaktoru, professor Seyfəddin Rzasoy, rəyçiləri, dosent Hikmət Quliyev və filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovadır. Monoqrafiya Aytən Cəfərovanın yazdığı "Folklorda yaşayan folklor" adlı ön söz, giriş, beş fəsil, nəticə və istinad ədəbiyyatı kimi hissələrdən ibarətdir.




"Ön söz"də irihəcmli janrların daxilində digər janrlardan yerli-yerində istifadə olunmanın şifahi söz sənətimizin zənginləşməsində və müvafiq janrın bədii təsir gücünün ikiqat artmasında mühüm rolu qeyd edilmişdir. Eyni zamanda gələcəkdə müvafiq fəsillərdə bəhs olunan janrlardan başqa digər folklor örnəklərində də yaşayan həm müasir, həm də ilkin janr örnəklərinin aşkara çıxarılması üçün bu monoqrafiyanın düzgün yola istiqamətverici mayak xüsusiyyətinə malik olduğu diqqətə çatdırılmışdır.

Monoqrafiyanın "Dastanlarda işlədilən aşıq şeiri janrları" adlandırılan birinci fəslində "Ziyad və Şövkət", "Telli Qara", "Aşıq Qurbani", "Əmrah", "Arzu-Qənbər", "Valehnən Taleh" dastanlarında divani, müxəmməs, qoşma, gəraylı, təcnis, cığalı təcnis janrlarının araşdırılması həm folklor mühitinin öyrənilməsi, həm də Naxçıvandan toplanmış dastanlarda aşıq şeirlərinin ümumi xüsusiyyətlərinin əks etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Müəllifin qənaətincə, bu janrlar təkcə dastanın struktur poetikasını əks etdirmir, həm də bu nümunələrlə qəhrəmanların xarakteri, obrazların düşüncələri açılır, əsərin təhkiyəsi bədii zənginlik qazanır. Konkret janrlarla bağlı dəyərli ədəbiyyatşünas və folklorşünas alimlərin fikirlərini dərin hörmətlə xatırladan müəllif bir sıra hallarda regiona məxsus bəzi nümunələrin tamamilə orijinal üsullarla yaradıldığı qənaətinə gəlir ki, birinci fəsildə "Ziyad və Şövkət" dastanı bu fikrin əyani sübutu olaraq irəli sürülür. İkinci fəsildə nağıl janrında kosmoqonik yaradılış formulları olan alqış (kosmosyaratma) və qarğış (xaosyaratma) janrlarının işlənmə məqamlarına nəzər salınmış, "Kitabi-Dədə Qorqud" və digər dastanlarda, nağıllarda istifadə olunan bu janrlar xalqın etnik xüsusiyyətlərini daha fəal mühafizə edən janrlar kimi səciyyələndirilmişdir. Bu janrların mərasimlərlə, məişətlə, mifoloji və dini təsəvvürlərin təsiri ilə formalaşması, daha qədim tarixə malik olan qarğışların inanc obyekti baxımından müxtəlif qruplaşdırılmaları ilə bağlı tədqiqatçıların qənaətlərinə münasibət bildirən müəllif daha sonra mövzu haqqındakı araşdırmalarını təqdim edir. Maraqlı məqam nağıllarda alqışlara nisbətən qarğışların həm nümunə sayı, həm də variantlılıq baxımından zənginliyidir. Müəllif Naxçıvandan toplanmış "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi", "Kişinin arvadını sınaması", "Adil padşahın nağılı", "Aftabın nağılı" kimi nağıllarda xalis alqış və qarğışlarla yanaşı, mahiyyətində qarğış daşıyan andların, məna baxımından atalar sözlərinə bənzəyən qarğışların işləndiyinə də diqqət çəkmişdir.

Elxan Məmmədov mifoloji əfsanə və rəvayətlərdə, xüsusən nağıllarda bu janrların qəhrəmanlara uğur arzulamaq məqsədilə istifadəsini, obrazların xoş niyyətinin açılmasındakı mühüm rolunu, həm də qədim türk fəlsəfi düşüncəsini özündə əks etdirdiyini aşkara çıxarır. Müəllif həm obrazların dili ilə, həm də nağıl söyləyicisinin nitqində alqış və qarğışlardan istifadənin onların yaddaşlara yazılaraq sonrakı nəsillərə çatdırılmasında əvəzsiz rol oynadığını qeyd edir. "Əfsanə və rəvayətlərdə inam və inanclar" adlı üçüncü fəsildə "Nuhun tufanı", "Yalqız ağac", "Oğlan-qız məqbərəsi" və sair örnəklər əsasında ən qədim janrlardan olan inancların bəzən olduğu kimi, bəzən də təsvir olunan hadisələrə münasibət bildirmək baxımından geniş yer aldığı qeyd edilir. "Bayatılarda işlənən atalar sözlərinin poetikası" adlı fəsildə region insanının özünəməxsus düşüncə və təfəkküründən süzülən dərin qatlı mənaları özünün ritmik və ahəngdar janrlarında da bol-bol istifadə etdiyi nümunələr vasitəsilə təsdiq olunur. Həmin nümunələr əvvəlcədən məlum toplularda rast gəlinməyən, tamamilə orijinal və yeni bayatılar olması ilə də müəllifin diqqətini cəlb etmişdir. O, professor Məhərrəm Qasımlının bayatılarla bağlı təsnifatındakı bayatı-bağlama, bayatı-deyişmə, bayatı-tapmaca və sair kimi formalara həmin bayatı-atalar sözü nümunələrini də daxil etməyi zəruri hesab edir. Belə nümunələrə misal olaraq:

*Asta de bayatını,*
*Ahəstə bayatını.*
*Mərdlər yabı minibdi,*
*Namərdlər bəy atını.*

Və yaxud:

*Sürü tanır qurdunu,*
*İyid sevər yurdunu.*
*Bir xain, bir də qorxaq*
*Batırar bir ordunu.*

Ümumilikdə isə müəllif atalar sözlərinin bayatılarda işlənmə məqamları ilə bağlı dörd halı qeyd edir: 1) heç bir dəyişikliyə uğramadan, 2) müəyyən qədər dəyişdirilmiş formada, 3) mətnaltı mənada dərk edilən, lakin mətndə gizlədilmiş formada və 4) bütövlükdə, atalar sözü gücünü, məna yükünü daşıyan müəyyən misraları olan bayatılar. Bu fəsildən belə bir nəticə əldə olunmuşdur ki, Naxçıvandan toplanmış bayatılarda atalar sözlərinin işlədilməsi həm bayatıların ritmik ahəngdarlığına fərqli bir ovqat əlavə etmiş, həm məna tutumunu zənginləşdirmiş, həm də atalar sözlərinin özünün yaşarlılıq və mühafizə sisteminə çevrilmişdir. "Xalq mərasimlərində nəğmələrin rolu və yeri" adlı sonuncu fəsildə mərasim nəğmələrində söyləyici iştirakçıların yaş kateqoriyalarındakı fərqləri müşahidə edir, təsərrüfat həyatı ilə bağlı mərasimlərdə böyüklərin, təqvimlə bağlı mərasimlərdə uşaqların aktivliyi müəllifin diqqətini cəlb edir. Bu nəticəyə gəlinir ki, uşaqdan-böyüyə hər bir xalq nümayəndəsi etnosun ümumi məhsulu olan nəğmələrə aşinadır. Bundan başqa, mərasimlər daxilində nəğmələrin yer alması etnoqrafik yaddaşdan folklor yaddaşına keçiddə, folklor yaddaşında etnoqrafik yaddaşın varlığı məsələləri ətrafında danışmağa imkan verməsi vurğulanmışdır.

Monoqrafiyanın "Nəticə" hissəsində fəsillər üzrə aparılan tədqiqatlarla bağlı müəllifin əsas qənaətləri ümumiləşdirilmiş və bu mövzunun gələcəkdə daha geniş araşdırmalara, həmçinin daha çox janrlar arasında paralellik aparmağa, əhatəli və ətraflı tədqiqatlar barədə düşünməyə əsas verdiyi qeyd olunmuşdur.

Məlum olduğu kimi, 2021-ci il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirədəki tarixi çıxışında digər sahələrlə yanaşı, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna qədim diyarımızın hər bir bölgəsi üzrə folklor nümunələrinin toplanması, təsnifatı, nəşri və tədqiqi ilə bağlı fəaliyyətini gücləndirməklə bağlı mühüm tapşırıq vermişdir. Ali Məclisin Sədri min illər ərzində formalaşmış xalq deyimlərimiz – atalar sözləri, tapmacalar, məsəllərin folklorşünaslıq, elmi-tarixi əhəmiyyətini vurğulayaraq Etnoqrafiya və Folklorşünaslıq şöbələrinin əməkdaşlarının bu folklor nümunələrinin toplanması və təbliği istiqamətində fəaliyyətini gücləndirmələrini, bölgələr üzrə xalq deyimlərinin yığılması və sistemləşdirilərək nəşrini mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bu mənada, həmkarımız, istedadlı alim Elxan Məmmədovun folklorşünaslıq elmini yeniliklərlə zənginləşdirəcək yeni monoqrafiyasını bəhs etdiyimiz müşavirədə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində də mühüm addım kimi dəyərləndirmək olar. Ümidvarıq ki, yeni nəşr folklorşünaslığımızda daha aktual elmi-tədqiqat istiqamətlərini müəyyənləşdirməklə yeni elmi araşdırmaların əsasının qoyacaq.

**Aygün ORUCOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Maye halında 308 kiloqrama yaxın psixotrop maddə aşkarlanıb




Naxçıvan gömrükçüləri tərəfindən daha bir fakt üzrə narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb. Naxçıvan Muxtar Respublikasının ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına ferrosilikon yükü aparan 72AA511/72AA512 dövlət nömrə nişanlı "Volvo" markalı nəqliyyat vasitəsi Culfa dövlət sərhədindən buraxılış məntəqəsində risk meyarı əsasında rentgen qurğusundan keçirilməklə yoxlanılıb. Analiz zamanı su və yanacaq çənlərində şübhəli təsvirlər müəyyən edildiyindən nəqliyyat vasitəsi əsaslı yoxlamaya cəlb olunub.

Şübhəli təsvirlər əsasında nəqliyyat vasitəsinə fiziki gömrük baxışı həyata keçirilən zaman yanacaq və su çənlərində süni olaraq hazırlanmış və aşkarlanması çətinləşdirilmiş gizli saxlanc yerlərindən xalis çəkisi 307 kiloqram 900 qram olan maye halında psixotrop maddə – metamfetamin aşkarlanıb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (Qaçaqmalçılıq) uyğun olaraq cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 13 may 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/№ | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | VAZ-21214 | Minik | 2003 | 1 | 6000.0 | 600 |
| 2. | VAZ-21214 | Minik | 2006 | 1 | 8000.0 | 800 |
| 3. | VAZ-2121 | Minik | 1993 | 1 | 5500.0 | 550 |
| 4. | UAZ-31512 | Minik | 2004 | 2 | 6500.0 | 650 |
| 5. | UAZ-3962 | Tibb | 2002 | 5 | 5500.0 | 550 |
| 6. | QAZ-3308 | Yük | 2003 | 29 | 7000.0 | 700 |
| 7. | QAZ-3308 | Yük | 2002 | 1 | 6000.0 | 600 |
| 8. | QAZ-66 | Yük | 1990 | 1 | 5000.0 | 500 |
| 9. | Zil-130 | Yük | 1983 | 1 | 5000.0 | 500 |
| 10. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 11. | Zil-131 | AÇ-4.2 su | 1989 | 1 | 8000.0 | 800 |
| 12. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 13. | Zil-131 | AÇ-4.2 su | 1988 | 1 | 8000.0 | 800 |
| 14. | Zil-131 | TA-6 | 1989 | 1 | 8000.0 | 800 |
| 15. | Zil-131 | AÇ-4.5 su | 1990 | 1 | 8500.0 | 850 |
| 16. | Zil-131 | 8 YU 12 | 1988 | 1 | 8000.0 | 800 |
| 17. | Zil-131 | Hidrokran | 1989 | 1 | 16000.0 | 1600 |
| 18. | Zil-131 | AD-30 | 1988 | 1 | 8000.0 | 800 |
| 19. | Zil-131 | Hidrokran | 1987 | 1 | 15000.0 | 1500 |
| 20. | Zil-131 | Hidrokran | 1985 | 1 | 14000.0 | 1400 |
| 21. | URAL-4320 | AÇ-5.5 ysm | 1986 | 1 | 13000.0 | 1300 |
| 22. | URAL-4320 | Özüboşaldan | 1993 | 1 | 17000.0 | 1700 |
| 23. | URAL-4320 | Özüboşaldan | 1988 | 1 | 15000.0 | 1500 |
| 24. | Kamaz-4310 | Yük | 1986 | 1 | 25000.0 | 2500 |
| 25. | Kamaz-43101 | Yük | 1985 | 1 | 20000.0 | 2000 |
| 26. | Kamaz-4310 | Yük | 1987 | 1 | 22000.0 | 2200 |
| 27. | Kamaz-4310 | Yük | 1990 | 1 | 25000.0 | 2500 |
| 28. | Kamaz-5320 | Yük | 1988 | 1 | 15000.0 | 1500 |
| 29. | UAZ-31512 | Minik | 1987 | 1 | 5500.0 | 550 |
| 30. | UAZ-31512 | Minik | 1989 | 2 | 5500.0 | 550 |
| 31. | Kamaz-5511 | Yük | 1988 | 1 | 11000.0 | 1100 |
| 32. | Kamaz-5320 | Yük | 1988 | 1 | 14000.0 | 1400 |
| 33. | Ekskovator EA | Yük | 1978 | 1 | 8000.0 | 800 |
| 34. | BMC PRO-522 | Yük | 2009 | 1 | 33934.0 | 3393.40 |
| 35. | NİSSAN MAXİMA | Minik | 2006 | 1 | 13000.0 | 1300 |
| 36. | NEXİA 2 SONC | Minik | 2009 | 1 | 8000.0 | 800 |
| 37. | VAZ-21217 | Minik | 2004 | 1 | 7000.0 | 700 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 11 may 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər. Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 may 2022-ci il tarixdə saat 11[00]-da mərkəzdə keçiriləcəkdir. Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

## İtmişdir

Babək rayonu, Şəkərabad kəndində yaşamış Baxşəliyev Firuz Rəşid oğlunun adına verilmiş 01.05.2009-cu il tarixli, AA-003138 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Gülməmmədov Teyyub Nəbi oğlunun adına verilmiş 1629 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 357